

Qərib Mehdi

# Gəlin bölüşək

(hekayə)

***Tək-tənha yaşayan Məsim kişi ürəkli adamdı. Ömrünün günbatanındadır. Yaşı çoxdur, pensiyası az. Qənaətə alışıqlıdır. Elə bil hesab müəllimidir. Aylıq pensiyasının qədərini günlərə bölüb. Bu ustalığın hesabına günlər bir-birindən incimir. Çünki payları bərabərdir. Bu xərc cədvəlinə bircə əlavə var – həyətinə qonaq gələn quşların payı. Axı qonağı ya əlidolu, ya da qarnıdolu yola salmalısan. Əslində, bu həyətə isinişən, təhlükə hiss etməyən quşlar (onların sayı 10-dan yuxarı olmur) qonaq «statusundan» çoxdan çıxıblar. Onlar ilin isti fəsillərində Məsim kişinin büdcəsinə ziyan vurmurlar. Yalnız soyuq fəsillərdə qoca qonaqlarına «yardım paketini» artırır. Bu xidmətin mükafatı olaraq Məsim kişi özünü rahat hiss edir. Gecələr yaxşı yatır. Yuxusuna qarabasmalar ayaq açmır. Zənn edir ki, ehtiyacı olanlara yardım əli uzatdığı üçün Allah ondan razı qalır.***

***Məsim kişinin heç kimdən qorxacağı, çəkinəcəyi yoxdur. Nə polisdən, nə icra başçısından, nə də bələdiyyə rəisindən. Hətta günlərin birində onu bu fani dünyadan apacaq Əzraildən də qorxmur. O, Əzrailə can alan kimi baxmır. Allahın borcunu geri qaytarmağa gələn mələk kimi baxır.***

Məsim kişi təkcə bir adamdan, bir təşkilatdan – qiymətləndirmə ilə məşğul olan Tarif Şurasından qorxur. Vaxtaşırı onun qiymətləri bahalandırmaq qərarı dolanışığı ağırlaşdırır, kasıb-kusubun belindən basır. Gizlətməyə ehtiyac yoxdur. Düzü budur ki, o, kasıbların, kimsəsizlərin çörək sınağına çəkilməsindən qorxur. Bu qorxu evlərin işığını söndürür, gözlərə yaş endirir, əyri yollara qapı açır, bir də adamlara sığınan, pənah gətirən quşları ac qoyur. Bunu Allah götürməsə də, Tarif Şurası götürür.

O, qulağı ilə eşidib, gözü ilə oxuyan kişilərdən olub. Və öz zövqünə görə qulaq və göz mütaliəsindən ləzzət alıb. Bir dəfə radioda dastan söyləyən Aşıq Hüseyn Saraclıya qulaq asırdı. Çətinlik qıtlıq kimin dolanışığına necə təsir edir? Aşıq özünün məzəli təhkiyəsi və orijinal bənzətməsi ilə fikrini belə çatdırdı: «Korun nə vecinədir ki, nöyüt bahalaşıb». Onda bu bənzətmə fərqinə varmadan Məsim kişiyə xoş gəlmiş və ürəkdən gülmüşdü.

***O, ömrünün orta çağlarında Türkiyə yazıçısı Əziz Nesini də maraqla mütaliə edirdi. Yazıçının bir hekayəsi indiyədək yadından çıxmır. Yazıçı ədəbi fantaziyaya varmış, Türkiyə kosmodromundan fəzaya – yer orbitinə bir kosmik gəmi buraxıldığını vurğulamışdı. Gülüş ustası bahalaşmadan, xalqın vəziyyətinin ağır olmasından birbaşa söz açmır. O, ancaq məcazla göstərir ki, budur, yuxarı qalxan gəmi ətin qiymətini, sonra yağın qiymətini, daha sonra çörəyin qiymətini ötüb keçir. Sürətə bir bax, ha!.. Məsim kişi ustadın bu fəndinə də gülmüşdü. Sən demə, ağlamalı günləri sonraya qalıbmış. Sonralar zalım, insafsız Tarif Şurası Məsim kişiyə elə bir toy tutdu ki, Aşıq Hüseyn Saraclıya da, Əziz Nesinə də rəhmət oxuyası oldu. Onların əvəzinə yadında ancaq və ancaq Tarif Şurası qaldı.***

...Və onu dirçəldən, çöküşdən xilas edən bir nəsnə də vardı – Bakıya su çəkdirən, əzəmətli binalar tikdirən, məktəb və teatr açdıran, milli mətbuata dəstək olan, işıqlı ziyalılara təmənnasız əl uzadan mesanat-xeyriyyəçi neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin əməllərini xatırlamaq...

Məsim kişi gəlirli bir işlə məşğul olmaqla irəli gedə bilərdi. Həyətyanı sahəsi də buna imkan verirdi. Yəni, qaz, ördək, toyuq, hind quşu saxlaya bilərdi. Onları dənləndirib, qidalandırıb əvəzində yumurta alardı. Yumurta da ki, ən keyfiyyətli qida mənbəyidir. Tutduğu yol buna imkan vermirdi. O, əvəz-əvəz prosesinə qoşulmurdu. Onunki əvəzsiz xidmət idi. Və bunu savab sanırdı. Bu umacaqsız xidmətin müqabilində ona pənah gətirənlərin sayı tədricən artırdı. Mövsümə uyğunlaşmayan, köçərilikdən vaz keçən quşlar – sərçələr, göyərçinlər onun xeyriyyəçiliyindən məmnuniyyətlə yararlanırdılar. Hərdən sığırçın, qaratoyuq, şanapipik də yolunu bu həyətdən salırdı. Hətta bir dəfə bülbül də göründü. Qoy olsun. Nə qədər ki, Məsim kişinin nəfəsi gedib-gəlir ona üz tutan köməksizlər ac qalmayacaqdır.

İqtisadiyyat enəndə qiymət qalxır. Rüzigar pis əsməyə başladı. Tarif Şurası kəmərləri tarım çəkmək xəbərdarlığı ilə çıxış etdi. Benzinin və ondan əmələ gələn törəmə məhsulların qiyməti artdı. Məsim kişi bu bəd xəbərə o qədər də əhəmiyyət vermədi. Gəzəyən maşını yox, yer şumlayan traktoru yox. Qoy bunların sahibləri belə şeylərin dərdinə qalsın. Əsas çörəkdir. Unun, çörəyin qiyməti bahalaşmırsa, dolanmağa nə var kig Özünü Hüseyn Saraclının Kor kişisi kimi aparırdı: Korun nə vecinədir ki, nöyüt bahalaşır. Yanılırdı. İlk baxışdan sonra bu təsəlliverici təəssürat yavaş-yavaş əriyib yox olurdu.

Məsim kişi intizamı sevirdi. Və onu süfrə mərasiminə də tətbiq edirdi. Hansı məhsuldan nə qədər alacaq, gündə hansından nə qədər sərf edəcək – bunu vurma cədvəli kimi əzbərləmişdi. Quşların da payı öz yerində. Heç kəsi olmadığından, qulluğunda durmağı Tanrı kimisə məsləhət bilmədiyindən biş-düşünü özü etməyə məcburuydu. Əlbəttə, çətinlik çəkirdi. Sınaqlara alışmaq çətinliyi də adiləşdirir. Qalır qeyri-adi hisslərlə yaşamaq. O da qismətdəndir. Quşların qulluğunda təmənnasız duranda, onların ac qarnını doyuranda, zavallılar razılıq əlaməti olaraq qanadlarını şappıldadanda, elə bilirdi dünyanı ona bağışlayıblar.

Mahnıda bir avazlı deyim var: «Həsri basma, dolan gəl». Reallıq, dolanışığın ağırlaşması həsri basmadan dolanıb-bulanıb onun qarşısına çıxırdı.

Dükançı uzaqdan Məsim kişinin qaraltısını görəndə bəri başdan onun alacağı çörəkləri hazırlayırdı: biri yarım kiloluq, o birisi 250 qramlıq. İri həcmli çörək özünə, kiçik həcmli çörək isə quşlara məxsus idi. Bu ədalətli ölçü tərəfləri təmin edirdi. Aztəminatlı pensioner bundan razı qalırdı. Xeyriyyəçinin, mesanatın balacası-böyüyü olurmu? Hə də demək olar, yox da. Bu yolu tutanlar öz imkanlarına görə xeyriyyəçilik edirlər. İmkanlar nəzərə alınsa, onların haya yetmək missiyasını bərabərlik işarəsi ilə dəyərləndirmək olar.

Tarif Şurası ona gendən daş atırdı. Benzinə, yanacağa bağlı çox şeyin qiyməti artmışdı. Məsim kişi özünü dolayıdan gələn qiymət basqısına hazırlamalıydı. Alacağı ərzaqların qədərini – çəkisini pensiyasına uyğunlaşdırmağa başladı. Qənaəti gücləndirsə, alıcılıq cədvəlində ixtisarlar aparsa, çətinliyi yola vermək olar. Qiymətləndirmə Şurası qənaətcil olmağı, az yeməyi məqbul saymağı məsləhət bilirdi. Hətta az qida qəbul etməyin faydasından da söz açırdı. Şuranın iqtisadçı başbilənləri mədəyə istirahət verməyin faydası barədə həkimlik edirdilər. Ürəyindən olmasa da, pensiyaçı deyilənlərə etiraz etmədi. Təsəlli vardı. Öz boğazından kəssə də, quşların payını qoruya bilirdi.

***Deyirlər, bahalaşma dünya boyu gedir. Ən inkişaf etmiş ölkələr belə, bundan sığortalanmayıb. Yaxanı buraxmayan pandemiya süreci də bir yandan vəziyyəti ağırlaşdırırdı. Erməni işğalçılarına qarşı aparılan uğurlu müharibə də ağır maddi itkilərlə başa gəlmişdi. Təcrübə göstərir ki, qələbədən sonra yüksəlişə, adamların rifah halının yaxşılaşmasına yol açılır. Yol açılmır, gözləntilər doğrulmur, məmurların mənimsəmələri buna imkan vermirdi. Elə bil Tarif Şurası qızmış gərgədan kimi qarşısına çıxanı, ona «dur» deyəni əzib keçirdi.***

Tarif Şurasından yeni nərilti eşidildi. Məsim kişinin qorxduğu baş verdi. Sanki Qiymətləndirmə Şurası fəth olunmamış axırıncı qalaya hücum etdi. Bildirdi ki, sabahdan un məmulatlarının, o cümlədən çörəyin qiyməti bahalaşır. Qoca pensiyaçı bu bəd xəbərin təsirindən başını əlləri arasına alıb dizi üstə çökdü. Dünya başına fırlandı, qulaqlarında qarışıq etiraz səsləri uğuldadı, ürküdülmüş quşlar qanadlarını bir-birinə çırpıb buludlu səmaya milləndilər. Məsim kişinin sinəsindən qeyri-iradi bir inilti qopdu: «Daş tök, Allah, daş tök!». Bir azdan özünə gəlib yavaş-yavaş ayağa qalxıb qəddini düzəltdi.

Qəlbinin dərinliyində bir ümid işığı yandı. Bəlkəg Kaş qulaqları ona xəyanət etmiş olaydı. Ümid işığı ovundurucu təsəllidən o yana keçə bilmədi.

Qış çətinliyin müttəfiqidir. Qiymət qalxıntısı barədə qərardan sonra səhərəcən qar yağmışdı. Suyun altındakı balıqların nə vecinəg Vay quşların halına!.. Bütün bayır-bacanı qar basmışdı. Sən demə, o da Tarif Şurası kimi insafsız imiş. Üzü qara olmuş ağ qar hətta dəlmə-deşikləri də tutmuşdu. Bu, uzağa uça bilməyənlərin intiharına bərabər idi. Bu da sədaqətin mükafatı.

Gecəni narahat yatdı. Səhər açıldı. Qar örtüyü gözlərini qamaşdırdı. Fikirləşdi: «Əri döyən arvadı, it də tutdu bir yandan. Mən birtəhər keçinərəm. Quşlar eşinməkdən qalacaq. Barı, günəş tez dada yetəydi, istisini əsirgəməyəydi». Sanki təbiətin zərbəsi quşların vecinə deyildi. Qara qadağa qoymaq olmaz. Yağır, qoy yağsın. Təki, Məsim kişinin ruzili əli işindən qalmasın. Yəqin ki, quşlar da belə düşünürdülər.

Quşlar həyətdə gəzinir, onun çörəkli əlinin yolunu gözləyirdilər. Məsim kişi ürəyində onlara təskinlik verib çörək dükanına doğru addımladı: «Bəlkə də, çörəyin bahalanması barədə Tarif Şurasının xəbərini qulaqlarım düz eşitməyib. Bir azdan hər şey aydın olacaq. Tələsib ruhdan düşməyə dəyməz. Quşların da Allahı var» – Məsim kişi özünə və quşlarına alacağı çörəyin pulunu əvvəlki qiymətlə ödədi. Satıcı günahkar baxışlarını dünyadan bixəbər müştərisinin üzünə dikdi:

– Bu gündən çörək bahalanıb. Pulun çatışmayan hissəsini ödə.

Məsim kişi dinmədi. Dərin fikrə daldı: «Axır ki, Tarif Şurası məni – bizi çörəklə imtahana çəkdi». O, sanki dükançının səsini eşitmirdi. Ürəyində yeni qiymət dəyişikliyini nəzərə alıb hesablama aparırdı. Pensiyaçı yaranmış xoşagəlməz vəziyyətdən çıxmaq üçün daha hansı ixtisarlara gedə bilərdi?

***Alıcı nə fikirləşirdi? Hansı çıxış yolunu seçmək istəyirdi? Məlum oldu. Quşlar üçün aldığı çörəyi geri qaytardı. Yalnız özünə məxsus çörəyin ödəncini qaydaya saldı. Onu qınamaq, yoxsa, başa düşmək lazımdır? O, yaxşı bilirdi ki, müharibədən çıxmış ölkədə dövlət və ayrı-ayrı xeyriyyəçilər tərəfindən şəhid ailələrinə və qazilərə yardım kompaniyaları keçirilir. O da bu müqəddəs hərəkatda iştirak etmək istərdi. Neyləmək ki, maddi çətinliyi buna imkan vermirdi. Ancaq öhdəsində olan günahsız və sahibsiz quşların köməyinə yardımçı ola bilirdi. İndi daha bu yol da bağlandı, bu imkan da tükəndi. Zalım Tarif Şurasının qərarına nə deyəsən?! Bundan sonra ac quşların taleyi necə olacaq? Onlar kimə pənah aparcaqlar? Başqaları onlara Məsim kişi kimi qucaq aça biləcəklərmi? Məsim kişi buna inanmırdı. Bəlkə də, ona görə ki, özünü köməyə möhtac olan təbiətin canlılarına daha isinişli hiss edirdi. İndi Tarif Şurası öz ədalətsiz qərarı ilə bu imkanı da onun əlindən almışdı.***

Məsim kişi çörək dükanından öz payını götürüb evə yönləndi. Qapını açıb içəri keçdi. Onu görən quşlar ev sahibinə doğru irəliləyərək öz dillərində nəsə dedilər. «Nəsə» deyəndə onları anlamağa nə vardı kig Yaşamaq üçün könüllü himayəçilərindən nemət umurdular. Məsim kişi isə onları sevindirəcək halda deyildi. Bu mənzərə qocanı üzürdü. O, quşların yanına əliboş qayıtmışdı. Yalnız öz hayına qalmışdı. Özünü başqasından çox istəmişdi. Son anda özünü seçmişdi. Fədakarlıq bu qədər də olmaz axı. Başqasının yaşamını öz həyatından üstün tutmaq onamı qalmışdı? Özünü qorumaq instinkti onu qurban olmaqdan çəkindirirdi. Bu hissi başa düşmək olardı.

Birdən göyərçinin biri uçub onun çiyninə qondu. Öz dilində ev sahibinə səslənərək quruldamağa başladı. O biri quşlar intizar içində elçi göyərçininin hansı cavabla geri dönəcəyini gözləyirdilər.

Nəhayət, Məsim kişinin üzünü işıq bürüdü. Bu işıq xoş niyyətdən xəbər verirdi. Qoca əlindəki çörəyini, ona məxsus olan payı yarı böldü. Öz qismətini kənara qoydu. Sonra çörəyin qalan yarısını quşlara doğru uzatdı:

– Uzaqda durmayın, yaxına gəlin, adlığımızı bölüşək.

Xeyirxah qocanın bu sözlərini quşlar su kimi içdilər, çörək kimi yedilər.

Əzraildən qorxmayan Məsim kişi həmişə Tarif Şurasının qərarından qorxmuşdu. Bu könüllü paylaşmadan, bölüşmədən sonra Tarif Şurasının onu yenməyə gücü çatmadı.

***Xoşuna gələn bir deyimi geri gələndə təkrarlayardı: «Çöl quşu, biyaban daşıg». Ömrünün mənasını bu deyimin bətnindən axtarardı. Ağzının son tikəsini ehtiyacı olan kimə, nəyə verməkdən rahatlıq tapırdı? Onun üçün cavab gün kimi aydın idi. O canlıya ki, bu yaxşılığın müqabilində heç vaxt əvəz qaytarılmayacaqdı.***

***Səmaya bax!.. Ən böyük mesanat-xeyriyyəçi, Bakı milyonçusu Hacı Zeynalabdinin şəfəq saçan Ruhu ən kiçik (və ən böyük) mesanat-xeyriyyəçi Məsim kişinin işıqlı simasına baxıb məmnunluqla gülümsəyirdi.***



*Alıcı nə fikirləşirdi? Hansı çıxış yolunu seçmək istəyirdi? Məlum oldu. Quşlar üçün aldığı çörəyi geri qaytardı. Yalnız özünə məxsus çörəyin ödəncini qaydaya saldı. Onu qınamaq, yoxsa, başa düşmək lazımdır? O, yaxşı bilirdi ki, müharibədən çıxmış ölkədə dövlət və ayrı-ayrı xeyriyyəçilər tərəfindən şəhid ailələrinə və qazilərə yardım kompaniyaları keçirilir. O da bu müqəddəs hərəkatda iştirak etmək istərdi. Neyləmək ki, maddi çətinliyi buna imkan vermirdi. Ancaq öhdəsində olan günahsız və sahibsiz quşların köməyinə yardımçı ola bilirdi. İndi daha bu yol da bağlandı, bu imkan da tükəndi. Zalım Tarif Şurasının qərarına nə deyəsən?! Bundan sonra ac quşların taleyi necə olacaq? Onlar kimə pənah aparcaqlar? Başqaları onlara Məsim kişi kimi qucaq aça biləcəklərmi? Məsim kişi buna inanmırdı. Bəlkə də, ona görə ki, özünü köməyə möhtac olan təbiətin canlılarına daha isinişli hiss edirdi. İndi Tarif Şurası öz ədalətsiz qərarı ilə bu imkanı da onun əlindən almışdı...*